## Ulu Öndər Heydər ƏLİYEV - 99

# Tarixi həqiqətlər

## (Xalq yazıçısı Anarın "Unudulmaz görüşlər"i haqqında)




2021-ci ilin 30 noyabrı xatirimə həkk olunmuş əlamətdar bir gün oldu. Həmin gün Azərbaycan Yazıçılar Birliyi İrs Komissiyasının sədri, şair-tədqiqatçı Sona Xəyalla Xalq yazıçısı Anarın görüşünə getdim. Əslində bu ziyarət iki il əvvəl düşünülmüşdü. Pandemiya dövrü, insanların həyatına qara pərdə çəkmiş illər buna mane oldu. Axı, Natəvan Klubu da öz tədbirlərini dayandırmışdı. Haqqında bəhs edəcəyim, ulu öndər Heydər Əliyevə həsr olunmuş "Unudulmaz görüşlər" kitabı da Xalq yazıçısının avtoqraf qeydi ilə həmin gün mənə bağışlandı. "Elm və təhsil" nəşriyyatında 2019-cu ildə nəşr olunmuş əsər memuar janrında yazılmışdır və yazıçının ədəbi, siyasi, ictimai həyatının 40 ilində ulu öndər, ümummilli lider Heydər Əliyevin misilsiz təsirindən qidalanmış kiçik bir ədəbi abidədir. Əsərə "Memuar ədəbiyyatının dəyərli örnəyi" adlı geniş ön söz yazmış Azərbaycan Yazıçılar Birliyinin katibi (hal-hazırda sədr müavini), 525-ci qəzetin baş redaktoru Rəşad Məcid aşağıdakıları da qeyd edir: "Heydər Əliyevin mədəniyyət və ədəbiyyata, bu iki sahədə istedad nümayiş etdirən insanlara münasibəti hədsiz dərəcədə əhatəli, çoxşaxəli və çoxçalarlı olması ilə müstəsnadır... "Unudulmaz görüşlər" də bu nəhəng siyasətçi, ustad dövlət rəhbəri haqqında onu yaxından tanıyan bir böyük ədibin,görkəmli mədəniyyət xadiminin son dərəcə xatirə, təsərüffat və mülahizələri cəmləşib."

Kitabın I hissəsi "Heydər Əliyevin müxtəlif illərdə çıxışlarından" adlanır və ulu öndərin Azərbaycan sovet poeziyasının banileri Rəsul Rza, Səməd Vurğun, Süleyman Rüstəm, Mirvarid Dilbazi və digər ədəbiyyat, incəsənət xadimləri haqqında yüksək fikirləri tarixi həqiqətləri əks etdirir. Bu hissədə, həmçinin, ulu öndərin Anarın "Dədə Qorqud", "Şəhərin yay günləri" əsərlərinə verdiyi yüksək dəyər vardır. Burada "Qobustan" toplusunun "azərbaycançılıq" ideyalarının carçısına çevrilərək bütöv bir nəslin milli, mənəvi-əxlaqi qayə və duyğularının formalaşmasında böyük rol oynamışdır" kimi qiymətli və əvəzsiz fikirləri öz əksini tapmışdır.



"Unudumaz görüşlər" in II hissəsi Anarın müxtəlif illərdə (ulu öndər qarşısında) çıxışlarından və Heydər Əliyevə məktublarından" adlanır. Xalq yazıçısının 1998-ci il 14 mart tarixli ulu öndərə yazdığı təşəkkür məktubu ilə başlayan bu hissədə Heydər Əliyevin, "neçə minillik Azərbaycan tarixinin ən böyük şəxsiyyətlərindən birinin" yazıçının 60 illiyi münasibətiylə verdiyi müstəqil dövlətin ən yüksək mükafatının, "İstiqlal" ordeninin həm də "altmışıncılar" nəslinə daimi diqqətinin, qayğısının daha bir təzahürü olduğu vurğulanmışdır. Bu hissədə verilmiş Xalq yazıçısı Anarın müxtəlif tədbirlərdəki çıxışlarında Heydər Əliyev dönə-dönə xatırlanır, onun müstəqilliyimizin və sabitliyimizin təminatçısı olduğu vurğulanır. "Ziyalılardan bir qrupunun müraciəti"ndə ulu öndərin dövlətimiz qarşısında xidmətlərinin əvəzsiz olduğu, 90-cı illərin əvvəllərində ölkəmizin düşmüş olduğu xaos vəziyyətindən məhz ulu öndərin zəngin təcrübəsi və dərin zəkası sayəsində qurtulduğu göstərilir. Müraciətə imza edənlər: Tofiq Quliyev, Anar, Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov və Fərhad Xəlilov üzlərini Azərbaycan vətəndaşlarına tutub onları 11 oktyabr (1998) prezident seçkilərində yeganə namizəd Heydər Əliyevə səs verməyə çağırırdılar.

Bu hissədə Xalq yazıçısı Anarın Respublika sarayında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş yubiley mərasimində və "Dədə Qorqud"un yubileyi üzrə dövlət komissiyasının yekun iclasında Prezident Heydər Əliyevə müraciətlə başlamış çıxışları diqqətəlayiqdir. Bir sıra təkliflərlə yanaşı, Azərbaycan klassik ədəbiyyatının ən vacib əsərlərini latın əlifbasıyla çap etmək təklif olundu, bildiyimiz kimi, bu təklif həyata keçirildi.

"Şəxsiyyətin miqyası" hissəsində Heydər Əliyevin tarixi şəxsiyyət olduğu göstərilir və bunun danılmaz həqiqət olduğu göstərilir, onu sevənlər də, sevməyənlər də, onun tərəfdarları da, ona qarşı olanlar da təsdiq etməyə bilməz. Bu hissədə Anarın "Qobustan" incəsənət toplusu haqqında "özümüzünkülər"in Azərbaycan KPMK-nın rus millətindən olan ikinci katibinə ötürdükləri məlumatlardan qaynaqlanan, "Qobustan" jurnalı türkcəmi çıxır?" sualı diqqətə çatdırılır. Bununla əlaqədar Xalq yazıçısı Anar yazır: "Özümüzün əli ilə özümüzə vurulan zərbələrin bir ucu Mərkəzi Komitənin rəhbərinə gəlirdi və o, bacardıqca bu zərbələrin qarşısını almağa, ya heç olmasa yumşaltmağa çalışırdı. Kitabda bu günümüzlə, daha doğrusu, 44 gündə Azərbaycan xalqının qazandığı Böyük Zəfərlə səsləşən, uzaqgörən məqamları oxudum: "Şuşada əzəmətli Vaqif məqbərəsini, Natəvanın heykəlini ucaltmaqla, Üzeyir Hacıbəyli, Bülbül muzeylərini açmaqla, Şuşada təntənəli beynəlxalq sənət tədbirləri keçirməklə Heydər Əliyev ən qədimAzərbaycan şəhərinin milli simasını müəyyənləşdirirdi."

"Çağdaş Azərbaycan Heydər Əliyevin əsəridir". "Qalib gəldi, qalib getdi adlanan" hissə ulu öndər Heydər Əliyevin həyatının son, ağır, xalqımız üçün çox həyəcanlı günlərinə həsr olunmuşdur. Bu günləri Anar çox həyəcanla, ürək ağrısı ilə təsvir edir. O yazır: "Neçə vaxtdır ürəyimiz səksəkədə idi, vaxtaşırı səhhətinin yaxşılaşdığını, tezliklə geri dönəcəyini eşitsək də, nigarançılığımız səngimirdi. Onun xəstə çağının görüntülərinin - kino-video kadrlarının, adicə fotolarının meydana çıxmamasını başa düşürdüm, çünki xasiyyətinə az-çox bələd idim. Xəstə, həm də ağır xəstə, həm yaşı 80-i ötmüş bir insanın vücüdunda da, sifətində də təbii ki, bir üzgünlük, zəiflik seziləcəkdi. Heydər Əliyev dostlarına da, düşmənlərinə də, doğma xalqına da bu şəkildə, bu halda görünməyə heç cür razı olmazdı. O, yaddaşlarda həmişəki kimi şaxyerişli, məğrur duruşlu, xoşsifətli, gülərüzlü, bəzən də sərt, itibaxışlı bir insan kimi qalmaq istəyirdi. Və elə beləcə də qaldı".

Xalq yazıçısı Anarın ulu öndərin səfərlərində, müxtəlif vaxtlarda Gəncədə, Şuşada, habelə İstanbul, Ankara, Moskva və onlarla başqa ölkələrdə görüşləri zamanıonu yaxından müşayiət etmək imkanı olmuşdur. Bu təəssüratları digər daha irihəcmli bir əsərində qələmə alacağına söz verən yazıçı öz gələcək planını belə açıqlamışdır: "İndi mənim bir böyük insanın xatirəsi qarşısında borcum-hafizəmdə və kağız üzərində qalmış bütün təfərrüatları, uzun illər müşahidə etdiklərimi və məhrəm söhbətlərimizin tam mətnini, eləcə də Heydər Əliyevin fenomeni haqqında düşündüklərimi iri bir yazı şəklində qələmə almaqdır və mən bunu mütləq edəcəm".

Anarsevərlər növbəti ulu öndərə həsr olunan zəngin, memuar janrında yazılacaq əsəri səbirsizliklə gözləyirlər.



***Tahirə* Həsənzadə**
*tarix elmləri doktoru,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*